**MƏTBUAT ÜÇÜN AÇIQLAMA**

# Azərbaycan Türkiyə Amerika Fondunun sədri Ahmet Erentok Konqress üzvü Eddi Bernays Conson və Luiziana ştatının qubernatoru Bobbi Jindal ilə görüşmüşdür

**No: 09/13/92**
**29.03.2009**

Azərbaycan Türkiyə İş Adamları Birliyinin (ATİB) İdarə Heyətinin sədri, Azərbaycan Türkiyə Amerika Fondunun (ATAF US) sədri Ahmet Erentokun Amerika Birləşmiş Ştatlarına işgüzar səfəri davam edir. İşgüzar səfər çərçivəsində Ahmet Erentok bir sıra rəsmi şəxslərlə görüşmüşdür.

Türkiyə Koalisiyasının ABŞ Siyasi Fəaliyyət Komitəsinin (Turkish Coalition USA Political Action Committee), Türkiyə Palatalar və Birjalar Birliyinin (TOBB) və Türk Amerika Assosiasiyaları Assambleyasının (ATAA) ABŞ Konqresinin üzvü xanım Eddi Bernays Conson ilə təşkil etdiyi görüşdə ABŞ və Türkiyə arasında münasibətlərin mövcud vəziyyəti müzakirə edilmişdir.

Qeyd edək ki, 25 fevral 2009-cu ildə xanım Conson ABŞ Konqresinin Xarici Işlər Komitəsi üzvlərinə “Tarix barədə hökmlərin verilməsinə deyil, tarixin nəzərdən keçirilməsinə dəstək olun” başlığı altında məktub yazmışdır. O, öz məktubunda Ermənistan Xarici İşlər Nazirinin Türkiyə və Ermənistan arasındakı diplomatik əlaqələrin normallaşdırılmasına yönəlməsi ilə bağlı səsləndirdiyi fikirlərin əhəmiyyətini vurğulamış və Ağ Evdə yenidən müzakirəyə çıxarılacağı gözlənilən erməni soyqırımı qətnaməsinin müzakirəsinin Ermənistan və Türkiyə arasındakı tarixi mübahisə ilə bağlı bir tərəfin haqlı olduğunun təsdiqləyəcəyi halda iki ölkə arasındakı nomrallaşma prosesinin sarsılacağını qeyd etmişdir.

Görüş zamanı xanım Conson ölkələr arasındakı münasibətləri yaxından izləməyə davam edəcəyini və regionun siyasi sabitliyi naminə ikitərəfli əlaqələrin uğurlu inkişafını dəstəkləyəcəyini bildrimişdir.

Daha sonra ATAF US İdarə Heyətinin sədri Ahmet Erentok, ABŞ-ın Luiziana ştatının qubernatoru Bobbi Jindal ilə görüşdə də iştirak etmişdir. Görüşdə iki ölkə arasında münasibətlərin inkişaf səviyyəsi diqqət mərkəzində olmuşdur.

Azərbaycan Türkiyə Amerika Fondu (ATAF US) 2008-ci ilin oktyabr ayında yaradılmışdır. Mənzil qərargahı Vaşinqton şəhərində yerləşən Fondun yaradılmasında əsas məqsəd ABŞ-da mövcud olan Azərbaycan və Türkiyə cəmiyyətlərini bir araya gətirərək onların fəaliyyətində vahid koordinasiyaya nail olmaqdır.

Əlaqə informasiyası:
Tel.: (+994 12) 449 88 82 / 83; Faks: (+ 994 12) 449 88 84; e-mail: pr@atib.az

**Mətbuat üçün açıqlamadan istifadə edərkən**
**ATİB-in İctimaiyyətlə Əlaqələr Şöbəsinə istinad edilməsi vacibdir**